# Görkəmli pedaqoq, elm xadimi

Əməkdar elm xadimi və Əməkdar müəllim, tarix elmləri doktoru, professor İsaq Mustafa oğlu Məmmədovu tanıyanlar onu istedadlı, ötkəm, cəfakeş-təcrübəli, öz peşəsinə sadiq, müəllim və xeyirxah insan kimi qiymətləndirirlər. O, 1925-ci il mart ayının 24-də Azərbaycanın dilbər guşələrindən olan Qubadlı rayonunun Qaracallı kəndində anadan olmuşdur. Atası Mustafa kişi rayonda sayılan, müdrik, qorxmaz, sözübütöv, mərd və xeyirxah insan olmuşdur. O, rayonda bacarıqlı, işgüzar və qabiliyyətli təsərrüfatçı kimi şöhrət qazanmışdı. Təsadüfi deyildir ki, Mustafanın adı xalq yazıçısı Əli Vəliyevin və bir çox yazıçıların əsərlərində mərd və qoçaq şəxsiyyət kimi tez-tez çəkilmişdir. Lakin 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində Mustafa Əmrah oğlu Məmmədov da ədalətsiz sovet rejiminin repressiyasına məruz qalmış, 1956-cı ildə isə bəraət qazanmışdır.

Mustafa kişi yaxşı təsərrüfatçı olmaqla yanaşı, mərd, ruzi-bərəkətli insan olub. Hələ 1930-1940-cı illərdə "Qızıl Bayraq" kolxozunun sədri olarkən, o ağır, çətin illərdə camaatı aclığın əlindən xilas edib. İşgüzarlığı, təşkilatçılığı, tələbkarlığı, haqqı-nahaqqa qurban verməməsi Mustafa kişiyə el ağsaqqalı nüfuzunu qazandırmışdı. Mustafa kişi Qaracallı kəndində ilk dəfə Su Elektrik Stansiyası tikdirmiş və qonşu kəndləri də işıqla təmin etmişdir.

Mustafa kişinin yaşadığı Qaracallı kəndindən ilk ali təhsil görmüş ziyalı, ilk elmlər namizədi və ilk elmlər doktoru alimlik dərəcəsinə ucalan da onun böyük oğlu professor İsaq Məmmədov olmuşdur.

1942-ci ildə orta təhsilini başa vuran İsaq Məmmədov Şuşa şəhərində müəllimlik hüququ verən pedaqoji kursa göndərilmişdir. Oranı bitirdikdən sonra doğma kəndi Qaracallıdakı natamam orta məktəbdə müəllim və dərs hissə müdiri işləmişdir. Əvəzçiliklə kənd sovetinin katibi vəzifəsində də çalışmışdır.

İsaq Məmmədov 1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə müəllimliklə yanaşı, ictimai həyatda və təsərrüfat işlərində də fəal iştirak etmiş, məktəbin kütlələr arasında təbliğat və təşviqat qrupunun fəal üzvü, şagird briqadasının başçısı olmuşdur. Məhz buna görə də o, "1941-1945-ci illər Böyük Vətən müharibəsində fədakar əməyinə görə" medalı ilə təltif edilmişdir.

Elm və təhsilə sonsuz həvəs İsaq Məmmədovu 1944-cü ildə Bakı şəhərinə gətirib çıxarmışdır. O, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinə daxil olmuş, təhsil aldığı illərdə "Stalin təqaüdü" almış və 1949-cu ildə həmin Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Universitetin Elmi Şurasının zəmanəti ilə aspiranturada saxlanılaraq 1949-1952-ci illərdə təhsilini davam etdirmişdir. 1952-1977-ci illərdə BDU-da assisent, müəllim, baş müəllim, dosent və professor vəzifələrində çalışmışdır. Alim İsaq Məmmədovun həyatının 30 ildən artıq bir dövrü Bakı Dövlət Universiteti ilə bağlı olmuşdur. Məhz burada elmi və pedaqoji fəaliyyətində püxtələşmişdir.

İsaq Məmmədov bütün şüurlu həyatını elmə və Azərbaycanda ali təhsilin təşkilinə və inkişafına sərf etmişdir. O, 1977-1978-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda, 1978-1984-cü illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda rektor, 1995-2005-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifələrində işləmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun ali təhsil ocağı kimi formalaşması və inkişafında İ.Məmmədovun böyük xidmətləri olmuşdur. NDU-nun 25 illiyinə həsr olunmuş "Əsrin dörddə biri" adlı kitabda deyildiyi kimi, "Naxçıvan Dövlət Pedaqoji İnstitutu onun (professor İ.Məmmədovun—R.İ) dövründə əsl ali məktəb prinsiplərinə müvafiq şəkildə yenidən qurulmuşdur. Ali məktəbə məxsus strukturlar - Elmi Şuralar, ictimai təşkilatlar və daxili ixtisaslaşmalar aparılmışdır.

İsaq Məmmədovun rektor işlədiyi müddətdə 1500 yerlik tədris korpusu, tələbata müvafiq sosial obyektlər və mikrorayonda müəllimlər üçün 50 ailəlik 5 mərtəbəli yaşayış binası tikilib istifadəyə verilmiş və 9 mərtəbəli yeni tədris korpusunun inşasına başlanmış, institutda su təchizatı və istilik sistemi qaydaya salınmış, avtomat telefon stansiyası quraşdırılmış və başqa obyektlər tikilib istifadəyə verilmişdir. Bu illərdə institutun elmi yaradıcılıq və təhsil işində böyük canlanma baş vermişdir. İnstitutun maddi-texniki bazası xeyli gücləndirilmiş, 70-ə qədər tədris-metodiki və elmi-tədqiqat laboratoriyaları təşkil edilmişdir. Məhz bu nailiyyətlərinə görə institut 1981-ci ildə respublika ali məktəbləri arasında Keçici Qırmızı Bayrağa layiq görülmüşdür. Yaradılmış əlverişli şərait NDU-da tədrisin, elmi-tədqiqat işlərinin, mədəni-kütləvi tədbirlərin daha da səmərəli təşkilinə öz müsbət təsirini göstərmişdir. Nəticədə tədris prosesi yeni məzmun kəsb etmiş, universitetin elmi mühitində əsaslı irəliləyişlər baş vermişdir. Eyni zamanda NDU-nun onlarca əməkdaşı namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş, müvafiq elmi adlar almış, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində keçirilən Ümumittifaq və respublika səviyyəli elmi konfranslarda, simpoziumlarda müvəffəqiyyətlə çıxış etmişdir. İnstitutun özündə dəfələrlə Ümumittifaq və Ümumrespublika tələbə elmi konfransları keçirilmişdir. Bütün bu və digər uğurların qazanılmasında NDU-nun rektoru professor İsaq Məmmədovun təşkilatçılıq bacarığının və ali məktəb işi sahəsindəki çoxillik təcrübəsinin mühüm rolu olmuşdur".

İsaq Məmmədov həm də görkəmli elmi-tədqiqatçı kimi tanınmış alimlərdəndir. 1955-ci ildə namizədlik və 1974-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1976-cı ildən professordur. 1970-80-ci illərdə dəfələrlə beynəlxalq, Ümumittifaq və respublika elmi-nəzəri və praktik konfranslarda məruzələrlə çıxış etmişdir. O, 200-ə qədər monoqrafiya, dərslik, dərs vəsaiti, kitab və kitabçanın, elmi-publisistik məqalənin, o cümlədən Azərbaycanda gənclər hərəkatına həsr olunmuş "Qəhrəmanlıq tarixindən səhifələr", "Unudulmaz rəşadət", "İnqilabi ənənələr və gənclik", "Ənənələr tərbiyə edir" və s. adlı kitabların müəllifidir. Müstəqillik dövründə professor İsaq Məmmədovun elmi yaradıcılıq fəaliyyəti daha bəhrəli olmuşdur. Bu illərdə o, "XX əsr Ümumdünya - tarixi proseslər", "Ümumdünya ictimai-siyasi proseslər. XX əsr", "Təlatümlü illər" dərsliyinin və s. kitabların müəlliflərindən olmuşdur.

İsaq Məmmədov tarix üzrə elmi kadrların hazırlanmasında əməyini əsirgəməmişdir. O, 1956-1977-ci illərdə BDU-da aspiranturaya qəbul və namizədlik minimum imtahanı komissiyalarının, 1978-1982-ci illərdə BDU-da, 1999-2002-ci illərdə Prezident yanında Dövlət İdarəçilik Akademiyasında, 2003-2006-cı illərdə Naxçıvan Dövlət Universiteti nəzdində tarix üzrə ixtisaslaşdırılmış müdafiə şuralarının, sonra Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində tarix elmləri doktoru və tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvü olmuşdur. Onun elmi rəhbərliyi ilə 15 nəfərə yaxın elmlər namizədi hazırlanmışdır. İ.Məmmədov 20-yə yaxın namizədlik və doktorluq dissertasiyanın rəsmi opponenti olmuşdur. O, Azərbaycanda gənclər hərəkatının tədqiqatçıları məktəbinin yaradıcılarındandır. Onun elmi rəhbərliyi ilə 10 nəfərə qədər məzun gənclər hərəkatına həsr olunmuş mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir. Professor 1977-1984-cü illərdə keçmiş SSRİ Ali Təhsil Nazirliyi yanında gənclər hərəkatı problemləri üzrə elmi-metodik şuranın və jürinin üzvü olmuşdur.

İsaq müəllim 1997-2006-cı illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində EMŞ-in "Tarix" bölməsinin sədri idi. Təhsil Nazirliyinin EMŞ-in "Tarix" bölməsinin rəhbəri kimi, o, yeni tələblərə cavab verən proqramların, dərsliklərin, dərs vəsaitlərinin, tədris-metodiki tövsiyələrin hazırlanıb nəşr edilməsində səmərəli fəaliyyət göstərmişdir. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində EMŞ-in "Tarix" bölməsi ümumtəhsil məktəblərin V-XI sinifləri üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" fənləri üzrə proqram və dərsliklərin hazırlanmasını və nəşrini təşkil etmişdir.

İ.Məmmədov ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" və "Ümumi tarix" fənləri üzrə proqram və dərsliklər hazırlanması üzərində işləyən qrupun üzvü kimi də bu işdə fəal iştirak etmiş, XI siniflər üçün "Azərbaycan tarixi" və "Ən yeni tarix" dərsliklərinin müəllifləri və redaktorlarından biri olmuşdur.

Professorun tərbiyə edib böyütdüyü oğlu Çingiz Məmmədov da onun peşəsini layiqincə davam etdirir. O, tarix elmləri namizədidir, Prezident yanında Dövlət İdarəçilik Akademiyasında dosent vəzifəsində işləyir.

İ.Məmmədov respublikanın ictimai həyatında fəal iştirak etmişdir. Görkəmli alim 1951-1985-ci illərdə Azərbaycan KP MK-nın ştatdankənar mühazirəçisi və mühazirəçilər qrupunun bölmə rəhbəri, 1980-1985-ci illərdə Naxçıvan MR-in Ali Sovetinin deputatı, Naxçıvan şəhər Partiya Komitəsinin büro üzvü olmuşdur. İ.M.Məmmədov əməyinə və yüksək elmi-pedaqoji fəaliyyətinə görə bir sıra dövlət mükafatları ilə təltif olunmuş, fəxri fərmanlarla, o cümlədən 1964-cü ildə respublika mədəniyyətinin və təhsilin



inkişafında səmərəli xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə mükafatlandırılmış, "Əməkdar elm xadimi", "Qabaqcıl ali məktəb işçisi" (1981), "Əməkdar müəllim" (2000-ci il) fəxri adlarına layiq görülmüşdür.

Həyatın çox çətin və ağır sınaqlarına sinə gərən İsaq müəllim möhkəm iradəsi, mətinliyi, prinsipiallığı, sözübütövlüyü, dözümlülüyü ilə də fərqlənmiş, hər sahədə — elmdə, yoldaşlıqda, dostluqda, ümumən həyatda öz sözü, öz dəst-xətti ilə seçilmişdir.

İsaq Məmmədov sadə, səmimi, mehriban, humanist, xeyirxah və genealoji mədəniyyətə malik olmaqla həyatın mənasını insanlara əl tutmaqda, yaxşılıq etməkdə, imkansızlara dayaq durmaqda, xeyirxah olmaqda gördü. Onun yetirdiyi, təmənnasız olaraq həyan olduğu, kömək etdiyi yüzlərlə insan hazırda iqtisadiyyatın, təhsilin, elmin və dövlət qurumlarının məsul pillələrində çalışmaqdadırlar. İsaq müəllim paklıq, obyektivlik, ədalətlilik və sadiqlik mücəssəməsidir. Öz fəaliyyətində ciddi məsuliyyətlilik, vicdanlılıq, diqqətlilik, obyektivlik, ədalətlilik, peşəsinə vurğunluq onun həyatının başlıca amalı olmuşdur. Son illərə qədər respublikamızın nüfuzlu ali təhsil müəssisələrindən sayılan Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərən İsaq müəllim bu əqidə ilə yaşamışdır.

O, müstəqilliyimizin bərpası, möhkəmləndirilməsi və inkişafı tarixinin tədqiqi və təbliğatçısı olmuşdur. ADNA-da onun rəhbərlik etdiyi Tarix kafedrasının kollektivi 1995-2005-ci illərdə "Azərbaycanın müstəqilliyinin bərpa, möhkəmləndirilməsi və inkişafı (1991-2001-ci illər)" elmi-tədqiqat mövzusu üzərində işləmişdi. Tədqiqatın illik nəticələri toplu şəklində nəşr olunmuşdur. Tədqiqat işində istiqlalımızın Heydər Əliyev mərhələsinə xüsusi yer verilmişdir. Professor İsaq Məmmədov həmin tədqiqatın elmi rəhbəri, iş icraçılarından biri olmuşdur.

Ömrünün səkkizinci onilliyini haqlamasına baxmayaraq o, gənclik həvəsi və əzmi ilə elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir. Hörmətli Prezidentimiz İlham Əliyevin 2007-ci il 31 may tarixli Sərəncamı ilə professor İsaq Məmmədov elmin və təhsilin inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

**Rauf İLYASOĞLU,**
**"Həkəri" qəzetinin**
**baş redaktoru, şair-publisist.**